BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2014*

# DİLÇİLİK

**UOT 81. 46.01.46.**

## SİYASİ DİLÇİLİYİN İNKİŞAF MƏRHƏLƏLƏRİNDƏN

**F.A.ŞİRİYEV**
***Bakı Dövlət Universiteti***
***fikrethemkar@mail.ru***

*Bu yazıda Siyasi dilçiliyin elm sahəsi kimi inkişafının mərhələlərindən və nümayəndələrindən danışılır. Qeyd olunur ki, Nitq mədəniyyətinin bir sahəsi olan Siyasi dilçilik dünyada əsasən XX əsrin ortalarından inkişaf etməyə başlamış və onun yaranmasına, sonrakı tərəqqisinə baş verən siyasi hadisələr ciddi təsir göstərmişdir. XX əsrin əvvəlləri üçün xarakterik olan inqilablar, dövlət çevrilişləri, müharibələr siyasi dilçiliyi yaratmış, həmin hadisələrin sonrakı sivil formaları- seçkilər,"soyuq müharibə"lər, dəyişikliklərin danışıqlar yolu ilə həlli meylləri siyasi dilçiliyin güclü inkişafına səbəb olmuş və bu elmin parlaq nümayəndələri yetişmişdir.*

**Açar sözlər:** siyasi dilçilik, kommunikasiya, ünsiyyət kanalı, təbliğat mətnləri, ictimai fikir, diskurs

İstənilən elmin inkişafı istisnasız olaraq cəmiyyətin inkişafı ilə bağlıdır. Məhz XX əsrdə siyasi dilçiliyin inkişafına Birinci dünya müharibəsi ciddi şəkildə təsir göstərmişdir. Xatırlayaq ki, bu hadisə təkcə dilçiliyə deyil, həm də digər elmlərə, həmçinin insanların həyatı dərk etməsinə, həyati duyumuna ciddi şəkildə təsir etmişdi. Yeni şəraitdə siyasi kommunikasiyanın öyrənilməsi, onun ictimai-siyasi həyatla bağlılığı aydın hiss olunurdu.

Döyüşən tərəflərin siyasi təbliğat kompaniyası məqsədlərə nail olmaqdan ötrü siyasi təbliğatın istifadə axtarışı linqvistik tədqiqatların bu istiqamətdə inkişafına xüsusi təkan verdi. Təbii ki, bu dövrdə ictimaiyyətin də fikirləri əsas rol oynayırdı, ictimaiyyəti inandırmaq, onu öz tərəfinə çəkmək həmin dövrdə xüsusi siyasi əhəmiyyət kəsb edirdi. Həmin dövrdə Uolter Lopmon, Prlt Lazasfeld, Harold Lassvel və başqaları siyasi dilçilik istiqamətində dəyərli əsərlər yaratmışlar. Birirnci dünya müharibəsi illərində U.Lipmon Fransada ittifaq ordusu üçün təbliğat vərəqələri yazmış və müharibədən sonra isə təbliğat və təşviqat işləri ilə məşğul olmuşdur. Buna görə də o, Amerikada siyasi xadim-

lərin diqqətini cəlb etmiş və sonralar orada bir neçə prezidentin məsləhətçisi olmuşdur. Müasir siyasi dilçilikdə U.Lipmon tərəfindən irəli sürülən «Gündəmin müəyyənləşməsi prosesi» adlı anlayışından istifadə olunur. Həmin gündəliyin mahiyyəti ondan ibarətdir ki, siyasi kommunikasiyada bəzi sualları – mühüm olanları işıqlandırmaq, digərləri barəsində susmaq lazımdır. Praktik olaraq, U.Lipmon hansısa problemin aktuallığını fərqləndirmiş, onun cəmiyyət üçün vacibliyi, mühümlüyü ön plana çəkilmişdir.

Kont-naliz U.Lipmona məxsusdur. O, dünyanın siyasi mənzərəsi barədə təsəvvür əldə etməkdən ötrü bu metoddan istifadə etmişdir. Həmçinin o, 1920-ci ildə "Nyu-York Tayms" qəzetində oktyabr inqilabına həsr olunmuş mətnlər toplusu üzrə tədqiqatlarını çap etdirmişdir. O, tədqiq olunan mətnlər üzrə birtərəfli mövqeyi nəzərdə tutaraq deyirdi ki, orta təbəqəyə aid amerikalıya dünyada baş verən hadisələri çatdırmaq mümkün deyil. P.Lazasfeld də kont –analizinin ilk təşəbbüskarlarından biridir. Onu daha çox şöhrətləndirən seçkiqabağı Oqayo ştatından tədqiqatları olmuşdur. 1940-cı ildə Lazasfeld və onun dostları, iş yoldaşları tərəfindən Amerika vətəndaşları arasında KİV mətnlərinin təbliğat zamanı effektliliyini yoxlamaq üçün 600 sorğu aparılmışdır. Məlum olmuşdur ki, onlardan təşviqat məqalələrini oxuyan 540 nəfərinin yarım il ərzində digər prezidentliyə namizədə hörməti artmışdır, onu üstün tutmuşlar. Məhz bu tədqiqatların nəticəsində kütləvi informasiya vasitələrinin insanlara, seçicilərinə total təsiri üzə çıxdı. Bundan sonra P.Lazasveld və digərləri «ikiqat kommunikasiya» modelini hazırlamağa başladılar. Həmin modelə görə, şəxsiyyətlərarası ünsiyyət kanalı kimi siyasi informasiyanın yayılmasının əhəmiyyəti göstərilir. Burada da əsas rolu ictimai fikirdə liderlik edənlər ifadə edirlər [9, 250].

P.Lazarfeldin bu metodu bu günə qədər də tətbiq olunur. Sonralar o, seçicilərinə təsir etməyin digər yolları barədə də fikirləşməyə başlayır. Müasir siyasi dilçiliyin yaradıcılarından biri də Harold Lassveldir. Siyasətdə kont-analizin tətbiqi və ondan səmərəli istifadə etmək yollarının öyrənilməsi H.Lassveldlə bağlıdır. O, siyasi rejimlə siyasi dil üslubunun qarşılıqlı əlaqəsini tədqiq eitmişdir. Onun fikrincə, siyasətçilərin dili seçicilərin dilinə çox yaxın olmalıdır, ancaq qeyri-demokratik elitlər özlərini onlardan üstün tutur, ayırır ki, bu da onların nitqində öz əksini tapır və nəticədə məğlubiyyətə gətirib çıxarır [15, 79]. Dil innovasiyası ictimai innovasiyanı qabaqlayır. Buna görə də siyasi dil üslubunun dəyişməsi cəmiyyətin ya demokratikləşməyə, ya da demokratiya krizisinə yaxınlaşmasının göstəricisidir.

H.Lassveld kvantitativ semantika metodunu işlədi. XX əsrin 40-cı illərində N.Leytes, C.Yakobson və digərləri dil vahidlərinin semantikası ilə siyasi proseslərin əlaqəsini müəyyənləşdirmişdir. Bu vaxt faşist təbliğatı mətnləri, Sovet şüarları və internasionalın dili geniş şəkildə öyrənilirdi.

İkinci Dünya müharibəsi dövründə siyasətdə dilin imkanlarından maksimum istifadə cəhdləri siyasi dilçiliyin inkişafına güclü təkan vermişdir. Bu dövrdə böyük siyasi xadimlərin dili, totalitar rejim idarəetmə sistemi ilə bağlı dildən optimal istifadə cəhdləri totalitar diskursu tədqiqat obyektinə çevirdi. Bu

dövrdə meydana çıxan əsərlərdə totalitar dövlətdə siyasi hakimiyyəti əldə saxlamaq məqsədi ilə insan şüurunun məhsulu olan nitq vasitəsilə idarəetmənin xüsusiyyətləri konkret misallarla şərh olunurdu [7, 65].

Belə tədqiqatçılardan biri də Corc Oruell idi. O, insanı yalanı həqiqət kimi qəbul etməyin və insanı dil vasitəsi ilə yalana məcbur etməyin yolunu konkret misallarla sübut edirdi. Məhz «Müharibə sülhdür» oksimoron şüarının dövlət ideologiyasına çevirməyin mümkünlüyünü isbat edirdi. Faktlara baxaq. Hitler Almaniyası faşist ideyalarının təbliğində dil vasitələrindən çox düşünülmüş şəkildə istifadə edirdi. Bu vaxt istifadə olunan metaforalarda «gərəksiz» sözlərə qadağa qoymaq, «yeni» sözlərin təbliğat zamanı istifadə olunması tədqiqatçıların diqqətini cəlb edirdi. Bu təbliğata qarşı Polşada dil müqaviməti və kommunist leksikonunun özünəməxsus cəhətləri ilə bağlı yeni tədqiqatlar meydana çıxdı (xüsusən də Almaniya, Çexiya, Rusiya və s.). Bu, sosialist təmayüllü diskurs idi. Həmin tədqiqatlarda milli özünəməxsusluqlarla yanaşı milli totalitar diskurs əlamətləri xüsusi qeyd olunurdu. Məsələn, Sovet mətbuatında «burjua humanizmi», «abstrakt humanizm» kimi birləşmələrdən istifadə olunurdu; bu anlayışlar qeyd olunan diskursda insana sevgini deyil, siyasi əleyhdarlara qarşı amansızlığı ifadə edirdi. Digər tərəfdən sosialist humanizmi həmin anlayışlara qarşı dururdu [7, 300].

Totalitar rejimin kommunikasiya praktikasının tətbiqi bu gün də davam edir. Mütəxəssislər bu rejimin diskursunda bir sıra əlamətləri – mütləq həqiqətə irad, bütün həyatın siyasiləşməsi, şüarçılıq, öz tilsiminə salmağa cəhd və s. məsələləri ciddi şəkildə indi də öyrənirlər. Totalitar diskursun mühüm cəhəti «rəhbərin» monoloqunun üstünlük təşkil etməsi, bizimkilər və «özgələr»in ciddi diferensiasiyası, problemin “sadə” effektli yolunun təbliği və s. məsələlərlə totalitar diskursun dil vasitələrindən necə istifadə etməsi indi də geniş şəkildə öyrənilir; bu, hər şeydən əlavə, kommunikasiya prosesində nitqin optimallaşdırılması məsələsi ilə bağlıdır. Sonralar Sovet qoşunları Əfqanıstana girərkən «məhdud kontingent» məfhumundan istifadə edilirdi; amma əslində bu müharibə beynəlxalq səciyyə daşıyırdı. Amerika Birləşmiş Ştatları Yuqoslaviya və İraqa qoşun yeridəndə isə demokratiyanın yaradılması, bərpası şüarı ilə çıxış edirdi ki, bu da sovet modelindən mahiyyət etibarı ilə fərqlənmirdi.

XX əsrin 60-80-ci illərində mütəxəssislər Qərbi Avropa ölkələrində demokratiyanı, o cümlədən həmin cəmiyyətdə siyasi diskursu öyrənməyə başlayırlar. Onlar bu qənaətə gəlmişlər ki, demokratiya şəraitində dil vasitələri ilə manipulyasiya daha əqli xarakter daşıyır [14, 112].

Həmişə yeni siyasi şərait kommunikativ təsirin metodlarını dəyişdirməyə gətirib çıxarır. Təcrübə göstərdi ki, kim kommunikativ vasitə baxımından güclüdür, o, hakimiyyət uğrunda mübarizədə qələbə çalır; çünki o, hədəfə təsir etmək üçün mövcud siyasi mənzərəni daha təsirli ifadə edə bilir. Məs: siyasi cəhətcə yetkin siyasətçi heç vaxt aztəminatlıların sosial proqramının ixtisarından söz açmır, vergilərin azaldılmasından danışır. Adətən, bu hesabla aztəminatlılar həmin sahədən maliyyələşirlər. Tədbirli siyasətçi ədalətdən, varlılarla

yoxsullar arasındakı kəskin fərqin azaldılmasından danışır; bunu bütün seçicilər başa düşmür ki, bu vergilərin birbaşa və ya dolayısı ilə yüksəldilməsi və onun həmin zümrəyə ödənilməsi təkcə milyonçulardan asılı deyil. Təcrübəli siyasətçi bu məsələni bilsə də, aztəminatlılara köməyin zəruriliyindən, verginin aşağı salınmasından bəhs edir.

İkinci dünya müharibəsindən sonra totalitarizmin, antidemokratizmin, milli şovinizmin formaları və onların dil aspektləri geniş şəkildə öyrənilməyə başlayır. Soyuq müharibə dövründə millitarist diskurs dilçilərin diqqətini cəlb edir. Sülhlə müharibəni balanslaşdırmaq fonunda siyasətçilər atom bombasının tətbiqinin vacibliyini öz vətəndaşlarına inandırır və nəticədə də «humanist» fikir yaradır. Bütün bu fonda siyasətçilər atom bombasının vacibliyini əks etdirən «atom dili» anlayışını yaradırlar. Digər tərəfdən, siyasi situasiyanın şərhində metaforik obrazlar mühüm əhəmiyyət kəsb edir. Məs: müharibənin alovlanması, atom apokalipsisi və s. kimi bənzətmələr bu gün heç də təəccüblü deyil.

Bu gün siyasi kommunikasiyanın qarşısında duran tələblərin öyrənilməsi siyasi dilçilikdə çox vacib faktor, siyasi diskursun öyrənilməsi siyasi dilçiliyin inkişafında mühüm mərhələdir. Bir çox tədqiqatçıların fikrinə görə, humanitar elmlərdə tətbiq olunan kont-analizin qüsurlarını aradan qaldırmaq cəhdi Avropada siyasi diskurs məktəbini yaratdı. Tədqiqatçının məqsədindən asılı olaraq, oxşar məzmunun statik təhlilindən alınan nəticələr ümumiləşdirilərək müxtəlif üsularla ifadə olunurdu [9, 125]. Bu təhlil mütəxəssislər tərəfindən (M.Peşe, M.Fuko, J.Dyubo) ikinci dərəcəli texniki üsulların məcmusu kimi qəbul edilirdi.

Diskurs məktəbinin predmeti mətndir; onun sosial, tarixi və intellektual istiqamətidir. Bu mənada təkcə mətnin məzmunu deyil, müəllifin məqsədi diqqət mərkəzində dayanır. Bəzən mətn bu mövzuda yazan digər müəllifin mətni ilə də tutuşdurulur [13, 315].

Beləliklə, XX əsrin 60-80-ci illərində siyasi diskurs geniş şəkildə öyrənilir. Seçkiqabağı çıxışlar, parlament və prezident seçkilərində mübarizə «dili» tədqiq edilir; onun elmi səviyyəsinə xüsusi fikir verilir.

Keçən əsrin 70-80-ci illərində Avropa ölkələrində siyasi diskursla bağlı hətta dərsliklər də meydana gəlir.

XX əsrin sonu XXI əsrin əvvəllərində siyasi dilçiliyn inkişafında aşağıdakı əlamətlər ciddi şəkildə nəzərə çarpır:

1. Siyasi dilçilikdə «qloballaşma» hiss olunur. Əgər siyasi dilçilik əvvəllər təkcə Avropa və Şimali Amerikada öyrənilirdisə, indi Afrika, Asiya, Latın Amerikası, Rusiya və s. ölkələrdə bu sahədə dəyərli tədqiqatlar aparılır: Sovetlər Birliyi dağılandan sonra «dəmir pərdə» götürüldü və siyasi diskursun Avropa alimləri tərəfindən öyrənilmiş metod və metodologiyası mənimsənilməyə başlanıldı.
2. Siyasi dilçilik inkişafının əvvəlki illərində totalitar diskursu, qərb demokratiyası siyasi diskursunu öyrənirdisə, müasir dövrdə çoxqütblü dünyanın yeni problemlərinə fikir verilir. Dilçiliyin bu yeni sahəsi dil, hakimiyyət və

cəmiyyətin qarşılıqlı əlaqəsi zəminində xüsusi maraq dairəsinə çevrilir.

3. Müasir dövrdə siyasi dilçilik siyasi kommunikasiyanı, «hakimiyyət» dilini öyrənən, öz ənənəsi və metodikası olan, xüsui məktəbə malik dilçilik sahəsidir. Bu sahə diskurs – təhlil evristika və koqnitiv metodologiyaya malikdir [14, 85].


### ƏDƏBİYYAT

1. Əliyev K.Y. Nitq mədəniyyəti və üslubiyyatın əsasları: dərslik /Kamil Əliyev; Elmi red.: K.Vəliyev. Bakı: Bakı Universiteti, 2001, 240 s.
2. Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi. [Mətn]: ali məktəblər üçün dərslik / II hissə. Bakı: Maarif, 1987, 293 s.
3. Qurbanov A.M. Ümumi dilçilik II cild. Bakı: Maarif, 1993, 556 s.
4. Yusifov M.İ. Nitq mədəniyyətinin əsasları [Mətn]: Pedaqoji ali məktəblərin bakalavr pilləsində təhsil alan tələbələr üçün dərs vəsaiti /H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutu. Bakı: Mütərcim, 1998, 214 s.
5. Баева О.А. Ораторское искусство и деловое общение. Минск: Просвещение, 2001, 328 с.
6. Васильева А.Н. Основы культуры речи. М.: Русский язык, 1990, 247 с.
7. Введенская Л.А., Павлова Л.Г. Культура и искусство речи. Современная риторика. Ростов-на-Дону: Феникс, 1998 г, 576 с.
8. Введенская Л.А., Павлова Л.Г. Деловая риторика: Учеб. пособие для вузов. Ростов-на-Дону: Феникс, 2001.
9. Гурвич С.С., Погорелко В.Ф., Герман М.А. Основы риторики. – Киев: 1988, 248 с.
10. Дюбуа Ж. и др. Общая риторика: Пер. с фр. Благовещенск: 1998, 391 с.
11. Клюев Е.В. Риторика. (Инвенция. Диспозиция. Элокуция). Учебное пособие для вузов. М.: ПРИОР, 2001, 272 с.
12. Кохтев Н.Н. Риторика. М.: Просвещение, 1994.
13. Кузнецов И.Н. Современная риторика. М.: Просвещение, 2003, 480 с.
14. Львов М.Р. Риторика. Культура речи. М.: Просвещение, 2004, 272 с.
15. Панов М.И. Риторика от античности до наших дней (вступительная статья) // Антология русской риторики. Москва, 1997.
16. Успенский Л.В. Культура речи. М.: Знание, 1976, 96 с.
17. Хазагеров Т.Г., Ширина Л.С. Общая риторика: Курс лекций и Словарь риторических фигур. Ростов на Дону: Феникс, 1994.


## ИЗ ЭТАПОВ РАЗВИТИЯ ПОЛИТИЧЕСКОЙ ЛИНГВИСТИКИ


**Ф.А.ШИРИЕВ**



### РЕЗЮМЕ

В статье говорится об этапах развития политической лингвистики как сферы науки и ее представителях. Отмечается, что политическая лингвистика, являющаяся одной из областей культуры речи, стала развиваться в мире, в основном, с середины XX века, и значительное влияние на становление и последующее ее развитие оказали происходившие в тот период политические события. Характерные для первой половины XX века революции, государственные перевороты и войны способствовали появлению политической лингвистики, а последовавшие затем цивильные выборы, «холодная война», тенденция к достижению перемен посредством переговоров - стремительному развитию политической лингвистики и появлению ярких представителей этой науки.

**Ключевые слова:** политическая лингвистика, коммуникация, канал общения, пропагандистские тексты, общественное мнение, дискурс.

## STAGES OF DEVELOPMENT OF THE POLITICAL LINGUISTICS

**F.A.SHIRIYEV**

## SUMMARY

This paper deals with the development stages and representatives of political linguistics as a field of science. It is mentioned that, political linguistics as a part of oratory culture was established in the middle of the XX century and was effected crucially by political cases. The beginning of the XX century which is characterized by revolutions, overturns, wars had created political linguistics and formed later civil forms of those events – election, “cold war”, changes in negotiations had led to changes in political linguistics and cultivated a lot of brightest representatives.

**Key words:** political linguistics, communication, intercourse channel, publicity topics, social opinion, discource